İmtahanlar bu bölgələrin ərazisində fəaliyyət göstərən məcburi köçkün rayonlarının ümumtəhsil məktəblərini, peşə liseylərini, eləcə də Təhsil Nazirliyinin bilavasitə tabeliyindəki lisey və gimnaziyaları, ali təhsil müəssisələrinin nəzdindəki orta məktəbləri əhatə edəcək.

İyunun 6-da ölkəmizin 19 şəhər və rayonunda mərkəzləşdirilmiş qaydada buraxılış imtahanı keçiriləcək. İmtahanlar bu bölgələrin ərazisində fəaliyyət göstərən məcburi köçkün rayonlarının ümumtəhsil məktəblərini, peşə liseylərini, eləcə də Təhsil Nazirliyinin bilavasitə tabeliyindəki lisey və gimnaziyaları, ali təhsil müəssisələrinin nəzdindəki orta məktəbləri əhatə edəcək.

133 mərkəzdə keçiriləcək imtahanlarda 52 minə yaxın şagird iştirak edəcək. Ötən tədris ilində müəyyən fənlərdən "qeyri-kafi" qiymət alaraq attestat almayan 1500-ə yaxın şagird onlar üçün yaradılmış 4 mərkəzdə ayrıca imtahan verəcək.

Təlimata uyğun olaraq səkkiz fənnin hər hansı birindən qeyri-müvəffəq qiymət alan şagirdə attestat verilməyəcək.